# UNUDA BİLMİRƏM - AMALİYA PƏNAHOVA












14 noyabr 2025-ci ildə Nizami Kino Mərkəzində Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Televiziyası və "EMEDIA GROUP" Media Təşkilatının birgə təşkilatçılığı ilə milli teatr və kino tarixinin əfsanəsi, Xalq artisti, Dövlət mükafatı laureatı, "Şərəf" və "Şöhrət" ordenli, Bakı Bələdiyyə Teatrının yaradıcısı Amaliya Pənahovanın 80 illik yubileyinə həsr olunmuş "Unuda Bilmirəm Amaliya Pənahova" bədii sənədli filminin təqdimat mərasimi keçirilidi. Mərasimdə rəsmi qonaqlar, mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri, tanınmış sənət adamları və başqaları iştirak etdilər. Təqdimat mərasimində Azərbaycan Dövlət Film Fondunun direktoru Cəmil Quliyev, xalq artistləri Nurəddin Mehdixanlı və Həmidə Ömərova, ekran əsərinin ideya müəllifi "EMEDIA GROUP" Media Təşkilatının sədri Elşən Əliyev, ssenari müəllifi Ülviyyə Heydərova, rejissor Şəlalə Hüseynova Amaliya Pənahovanın yaradıcılığını əhatə edən çıxışlar etdilər, sənətkar haqqında fikirlərini bildirdilər. Ümumiyyətlə, min aya dəyən bir gün oldu. Həm filmdə, həm də dəyərli ziyalılarımızın çıxışlarında Amaliya xanımın böyük şəxsiyyəti, onun həm mədəniyyət xadimi, həm də siyasi xadim kimi Vətən yolunda çəkdiyi əziyyətlər, etdiyi fədakarlıqlar, göstərdiyi xidmətlər vurğulandı. Azərbaycan Televiziyasının Kinoproqramlar redaksiyasında istehsal olunan filmdə Xalq artistinin yaradıcılığını əhatə edən məqamlara, zəngin yaradıcılıq yoluna nəzər salınıb, aktrisanın səhnəyə gəlişindən ömrünün son günlərinə qədər olan fəaliyyəti - Bakı Bələdiyyə Teatrını yaratması, özünün quruluş verdiyi tamaşalar, rejissor kimi həyata keçirdiyi tədbirlər, ümumiyyətlə, mədəniyyət və ictimai xadim kimi gördüyü işlər əks olunub. Filmdə Xalq yazıçısı Anar, Xalq artistləri Rasim Balayev, Hacı İsmayılov, Mərahim Fərzəlibəyov, akademik Rafael Hüseynov, Əməkdar incəsənət xadimi Məryəm Əlizadə sənətkarla bağlı xatirələrini dilə gətiriblər. Filmdəki bədii səhnələr Amalya xanımın sənətdə ilk fəaliyyətə başladığı və yaradıcılığının 30 ilini həsr etdiyi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında çəkilib.

Uşaqlığımdan Amaliya xanımın yaradıcılığını izləyən biri kimi ölməz sənətkarımızın yaradıcılığına və şəxsjyyətinə bir daha heyran oldum. Təbii ki, tədbirin sonunda dəyərli ziyalılarımızla xatirə fotoşəkli çəkdirmək mənə nəsib olduğu üçün də özümü xoşbəxt hesab edirəm.Tədbirdə və filmdə əməyi keçən hər kəsə dərin təşəkkürümü bildirərir, yaradıcılıqlarlnda uğurlar arzulayıram. Onu da qeyd etmık istəyirəm ki, Amaliya Pənahova ölməzdir, ona görə ki, bir zamanlar rolunu oynadığı böyük Xurşidbanu Natəvan kimi yolunda ömrünü şamtək əridiyi xalqımızın qədirbilən oğul və qızları onu hər zaman yaşadacaqlar!



*SEVİNDİK NƏSİBOĞLU*
*Milli Aviasiya Akademiyasının tələbəsi, şair-publisist, AJB üzvü*

*15.11.2025*